DÜNYA XƏBƏRLƏRİ

# Tramp: ABŞ İrana 'ağır zərbə' endirəcək

7 dəqiqə öncə




Donald Tramp

ABŞ prezidenti **Donald Tramp** Amerika qüvvələrinin İrana "ağır zərbə" vuracağını bildirib. Maliyyə naziri **Skot Bessent** isə Tehrana iqtisadi təzyiqi daha da artıracaqlarını deyib. Bundan əvvəl İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) İordaniyadakı iki ABŞ bazasına raket buraxmışdı.

**"Onları bərk vuracağıq. Cavab veriləcək",** – "Fox News"un müxbiri avqustun 31-də Trampın belə dediyini xəbər verib.

SEPAH İordaniyadakı Kral Hüseyn və Əl-Əzraq bazalarına ballistik raketlər atdığını və böyük dağıntılar törətdiyini bildirmişdi. SEPAH-ın hücumlarla bağlı məlumatları müstəqil şəkildə təsdiqləmək mümkün olmayıb.

Trampın sözlərinə görə, ABŞ-nin hava hücumundan müdafiə sistemləri İranın təhlükə törədə biləcək bütün raketlərini zərərsizləşdirib.

İordaniyaya hücumdan əvvəl ABŞ qüvvələri İranın Larak adasındakı raket buraxılış qurğularına zərbə endirmişdi.

"Fox News"un xəbərinə görə, Tramp onu da deyib ki. Tehrana qarşı sərt iqtisadi tədbirlər İran iqtisadiyyatına ciddi təsir göstərir.

**Bessent** isə bildirib ki, ABŞ ilə İran arasında son qarşılıqlı zərbələr Tehranın yeni sanksiyaların ölkə iqtisadiyyatında ciddi problemlər yaratmasına aqressiv reaksiyasını göstərir.

**"Onlar bunu çox ciddi qəbul edirlər... İqtisadiyyatlarının vəziyyəti onları şoka salıb"**, – Bessent ABŞ-nin Şimali Karolina ştatında 20 ölkənin maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin toplantısında jurnalistlərə deyib.

**"Təzyiqi davam etdirəcəyik, burada çox yaxşı müzakirələr aparmışıq"**, – Bessent söyləyib.

Onun sözlərinə görə, qarşıdakı həftələr və ya aylar ABŞ-nin təzyiq kampaniyasında dönüş nöqtəsi ola bilər. Bessent əlavə edib ki, Vaşinqtonun məqsədlərinə çatması üçün İran iqtisadiyyatının tamamilə çökməsinə ehtiyac olmaya bilər.

Fransanın maliyyə naziri **Rolan Lekür** toplantıda jurnalistlərə deyib ki, **"hamımız bunun üzərində işləməliyik".**

**"ABŞ-nin sanksiyaları gücləndirməklə bağlı öz yanaşması var. Bu yöndə onlara kömək edib-etməyəcəyimizi müzakirə edəcəyik"**, – o vurğulayıb.

## Buna da bax:


İrana yeni zərbələr 'Hörmüzə görə xəbərdarlıqdır'

İran müharibəsinin 6 ayı, bundan sonrası 4 məsələdən asılıdır

İran Omanla Hörmüz boğazı ilə bağlı yeni qaydalar üzərində işləyir


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur